Ədalətli olanlar Allah qatında, izzət və cəlal sahibi Rəhmanın sağındakı nurdan olan minbərlər üzərindədirlər. Allahın hər iki əli də sağdır

Abdullah bin Amrdan (Allah onların hər ikisindən razı olsun) Allah Rəsulunun (Allahın salavatı və salamı onun üzərinə olsun) belə dediyi rəvayət edilir: "Ədalətli olanlar Allah qatında, izzət və cəlal sahibi Rəhmanın sağındakı nurdan olan minbərlər üzərindədirlər. Allahın hər iki əli də sağdır, onlar hökmlərində, ailələrində və idarə etdikləri məsələlərdə adil davrananlardır".

[Səhih] [Muslim rəvayət etdi]

Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) xəbər verir ki, əmrləri və hökmləri altında olan insanlar arasında və ailələrində ədalət və haqla hökm verənlər Qiyamət günü onlara hörmət olaraq nurdan yaradılmış yüksək taxtlarda əyləşəcəklər. Bu minbərlər uca Rəhmanın sağındadır. Pak olan Allahın hər iki əli sağdır.

http://www.sunnah.global/hadeeth/az/show/4935